2013-cü il 11 – 20 fevral tarixlərində Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Milli Konservatoriyasının təşkilatçılığı ilə **III RESPUBLİKA MUĞAM MÜSABİQƏSİ** keçiriləcək.

Müsabiqə **xanəndə və xalq çalğı alətləri** ifaçıları üçün nəzərdə tutulmuşdur.

Müsabiqədə iştirak etmək üçün ərizə və sənədlər 1 fevral 2013-cü il tarixinədək Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kollecində qəbul ediləcəkdir.

Seçim turunda 18-35 yaşlı şəxslər iştirak edə bilərlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə edilir.**

1. İştirakçının şəxsiyyət vəsiqəsinin surəti

2. Tərcümeyi-hal

3. Başqa müsabiqələrin diplomlarının və ya digər mükafatların surəti (əgər varsa)

4. 2 ədəd fotoşəkil (7x10 ölçüdə)

5. Xanəndələr 10-15 dəqiqə vaxt çərçivəsində hər hansı bir muğamı dəf müşayiəti ilə DVD - video formatında təqdim etməlidirlər.

6. Xalq çalğı alətləri ifaçıları hər hansı muğamı 10-15 dəqiqə vaxt çərçivəsində DVD - video formatında təqdim etməlidirlər.

Müsabiqənin qalibləri pul mükafatı və qiymətli hədiyyələrlə təltif olunacaqlar.

Qaliblər beynəlxalq müsabiqələrdə iştirak etmək hüququ qazanacaqlar.

**Ünvan:** Dilarə Əliyeva küçəsi 216; əlaqə telefonu: 493-62-60

***Təşkilat Komitəsi:***